# AZƏRBAYCAN İDMANININ TARİXİ UĞURLARINI TƏMİN ETMİŞ BÖYÜK LİDER

**25 il öncə - 31 iyul 1997-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Milli Olimpiya Komitəsinin (MOK) növbəti Baş Məclisi Komitəsinin yeni idarə heyəti müəyyənləşdirildi və cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi. Bu seçim Azərbaycan idmanı üçün dönüş nöqtəsi oldu və respublikamızın idman tarixində şanlı qələbələrlə zəngin yeni səhifələr yazılmağa başladı.**

Belə bir vəziyyətlə barışmayan Baş Məclis MOK-un İcraiyyə Komitəsinin yeni tərkibini seçdi. Yekdil səsvermə nəticəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev MOK-un prezidenti seçildi.

***Bu sahədə də inkişaf və əldə olunan nailiyyətlər birbaşa cənab İlham Əliyevin adı və fəaliyyəti ilə bağlıdır***

Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın beynəlxalq olimpiya hərəkatında müstəqil və daha yaxından iştirakı üçün geniş imkanlar yarandı. Həmin dövrdə Milli Olimpiya Komitəsi qarşısında dayanan ümdə vəzifələrin həyata keçirilməsi üçün özünü kənarda qoymamalı, aparıcı rol oynamalı idi. Lakin 1997-ci ilədək bu istiqamətdə olduqca az iş görülürdü və demək olar ki, nəzərə çarpmırdı. İstedadlı idmançılarımız, məşqçi və mütəxəssislərimizin bir qismi ölkədən getmişdi. İdmançıların məşq və yarışlarda iştirakı, onların sosial vəziyyəti acınacaqlı halda idi. MOK-un nəinki beynəlxalq idman qurumları, hətta ölkənin idman təşkilatları ilə əlaqələri yox idi. Həmin dövr üçün qeyd olunmalı ən mühüm hadisə yalnız 1996-cı ildə Azərbaycanın müstəqil dövlət kimi ilk dəfə olimpiya oyunlarına qatılması idi. Atlanta Olimpiya Oyunlarına hazırlıq işlərinin həyata keçirilməsinə yalnız dövlət strukturları cəlb olunmuşdu.

Bu, böyük nailiyyətlərin başlanğıcını şərtləndirən olduqca mühüm və düzgün bir seçim oldu. MOK-un yeni prezidenti fəaliyyətə coşqun enerji və işə bələdliklə, mövcud durumu maksimum düzgün qiymətləndirməklə idmanımızı dirçəltməyin yollarını dəqiq müəyyənləşdirdi. İdmançılarla, idman mütəxəssisləri ilə ardıcıl, kollektiv və fərdi qaydada görüşdü, onlarla fikir mübadiləsi apardı. Elə ilk günlərdən ortaya əməli plan və proqram qoyuldu.

**(davamı 3-cü səhifədə)**

Respublika.- 2022- ci il.- 30 iyul.- S. 1.




# AZƏRBAYCAN İDMANININ TARİXİ UĞURLARINI TƏMİN ETMİŞ BÖYÜK LİDER

***Bu sahədə də inkişaf və əldə olunan nailiyyətlər birbaşa cənab İlham Əliyevin adı və fəaliyyəti ilə bağlıdır***

**(əvvəli 1-ci səhifədə)**

Bu gün, 25 il sonra, biz həmin qərarın düzgünlüyünü bir daha görürük. Azərbaycanda keçirilən I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, möhtəşəm idman qələbələrimiz, dünyaya təqdim olunan Azərbaycan standartları, Formula I Qran-Prisi və digər dünya və Avropa çempionatları, Şahmat Olimpiadası, Tur de Azərbaycan və s. idman tədbirləri ölkəmizin qüdrətini, tarixini, mədəniyyət və incəsənətini, gözəlliyini bütün dünyaya təqdim edir. Bu, həmin tarixi seçimin düzgünlüyünün və əhəmiyyətinin əyani göstəricisidir. Səmimi desək, əgər bu düzgün seçim olmasaydı, bugünkü tarixi qələbələrimiz, bütün idman ictimaiyyətinin ölkəmizin inkişafı naminə səfərbər olması da mümkün olmazdı.

Olimpiya oyunları dünya xalqlarının və ölkələrinin bir-birinə tanıdılması, təbliğ olunması baxımından əvəzsiz rol oynayır. Bu ali yarışlar ümumbəşəri dəyərlərə bağlılıq, milli maraqların, eyni zamanda xalqlar arasında bərabərliyin və dostluğun qorunması, fiziki və mənəvi cəhətdən sağlam nəsil yetişdirilməsi, əmin-amanlıq, sülh deməkdir. Bu oyunlar bütün dünyada ən populyar yarışlardır. Həmin yarışlar çərçivəsində milyonlarla insan bir yerə toplaşır. Bu mənada, olimpiya oyunları getdikcə daha böyük ictimai-siyasi anlam kəsb edir.

Bu prosesə cənab Prezident bütün varlığı ilə qoşuldu, yüksək təşkilatçılıq bacarığı nümayiş etdirdi. Dünyaya Azərbaycan standartlarını təqdim etməsi dediklərimizin bariz nümunəsidir. Bu seçim nəinki Azərbaycanı idman ölkəsinə çevirdi, onun dünyada imicini qaldırdı, eyni zamanda bütün idman ailəsini cənab Prezidentin ətrafında birləşdirərək, dövlətimizə, xalqımıza xidmətə səfərbər etdi, onları yad cərəyanlardan qorudu, həyatda öz layiqli yerlərini tutmağa kömək etdi. İdmana və idmançılara, idman ictimaiyyətinə olan dövlət diqqəti və qayğısı artıq bir norma, bir ənənəyə çevrilib.

İstənilən ölkədə idmanın ardıcıl, daimi inkişafı bilavasitə uşaqların və yeniyetmələrin idmana cəlb olunmasından asılıdır. Bu məsələ hələ 1997-ci ildə MOK-un fəaliyyət istiqamətlərindən biri kimi müəyyən olundu. Lakin təkcə uşaqları idmana cəlb etmək, idmanı təbliğ etmək azdır. Əvvəlcə idmanla məşğul olmaq üçün lazımi şərait yaratmaq, həmin şəraitdən bəhrələnib idman sahəsini seçmiş uşaqların və yeniyetmələrin yarışlarda özlərini sınamasını təmin etmək lazımdır. Məhz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu məsələ 1997-ci ildə ön plana çəkildi. Respublikada yeniyetmələr və uşaqlar arasında idmanın inkişaf etdirilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirildi. Yeniyetmələr arasında idmanın inkişafı və təbliği istiqamətində MOK-un irəli atdığı ilk addım iki ildən bir Yeniyetmələrin Respublika Oyunlarının təşkili və keçirilməsi oldusa, sonra bu işlər çoxplanlı şəkil aldı. Olimpiya ideyalarının ən böyük təbliğ aparatı olan bu yarışlar tezliklə yeni perspektivlərin üzə çıxmasında, ölkə idmanının kütləviliyinin təşkilində əhəmiyyətli rol oynadı. Azərbaycanın yeniyetmə idmançılarının müxtəlif beynəlxalq yarışlara göndərilməsi, onların Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya Komitəsinin himayəsi altında keçirilən böyük idman tədbirlərində iştirakı təmin olundu. Eyni zamanda, Azərbaycanda yeniyetmələr arasında qitə və dünya miqyaslı yarışların təşkili və keçirilməsi sahəsində işlər həyata keçirildi.

O vaxtdan başlayaraq, Azərbaycan idmanında yeni bir yüksəliş dövrü başladı.

Beləliklə, 1997-ci ildə cənab İlham Əliyevin MOK-un prezidenti seçilməsi ilə respublikamızda olimpiya hərəkatının və bütövlükdə idmanın inkişafında yeni mərhələnin əsası qoyuldu. İlk növbədə, Azərbaycan olimpiya hərəkatının real vəziyyəti öyrənildi, mövcud problemlər aşkara çıxarıldı. İşə əngəl törədən amillər müəyyənləşdirildi və onları aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlərin görülməsinə başlanıldı. Azərbaycanın olimpiya oyunlarında layiqincə təmsil olunmasını təmin etmək, beynəlxalq əlaqələrin qurulması və MOK-u beynəlxalq olimpiya ailəsində nüfuzlu bir təşkilata çevirmək, idmanın bütün növlərini inkişaf etdirmək, idmançılar üçün təlim-məşq toplantılarını təşkil etmək, onların sosial vəziyyətini yaxşılaşdırmaq, idmançı uğurunu və əməyini qiymətləndirmək, ölkədə idmanın maddi-texniki bazasını gücləndirmək, beynəlxalq yarışlara Azərbaycanın evsahibliyi etməsinə nail olmaq, beynəlxalq və qitə olimpiya komitələrinin, digər beynəlxalq idman qurumlarının tədbirlərinə fəal qoşulmaq, idmanın kütləviliyini artırmaq, uşaq və yeniyetmələri idmana cəlb etmək kimi məsələlər MOK-un fəaliyyətinin əsas istiqamətləri oldu.

Cənab İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız beynəlxalq olimpiya hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə qlobal işlər görüldü. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci ildə "Bədən tərbiyəsi və idman haqqında" qanun qəbul etdi. Bu qanun idmanın inkişaf etdirilməsinin hüquqi əsaslarını müəyyənləşdirdi, dövlətin idman siyasətinin göstəricilərindən birinə çevrildi.

İrqindən, dinindən asılı olmayaraq, müxtəlif millətlərin nümayəndələrini bir araya toplayaraq onların ədalətli oyun prinsipləri əsasında idman mübarizəsinə qoşulmasını təmin edən olimpiya oyunları beynəlxalq həyatın ən möhtəşəm və mötəbər bir tədbiridir. Bütün dövlətlər bu tədbirlərdən kənarda qalmamağa, olimpiya oyunlarında layiqincə təmsil olunmağa çalışırlar. Çünki olimpiya oyunlarında göstərilən nəticə yalnız dövlətin idman həyatının deyil, həm də onun iqtisadi potensialının, ictimai, sosial-mədəni həyatının göstəricisidir. Olimpiya oyunlarında qazanılan yüksək nəticələr beynəlxalq miqyasda ölkənin imicini qaldırmaqla yanaşı, imkanlarını da nümayiş etdirir.

1996-cı ildə Atlantada qazanılmış bir gümüş medal o dövrdə ölkəmiz üçün uğurlu nəticə olsa da, yetərli deyildi. Azərbaycan idmansevərləri və idmançıları olimpiya oyunlarında təkcə iştirak etməklə qane olmaq istəmirdilər. Hamı başa düşürdü ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmasında MOK daha çox işlər görə bilər və görməlidir. Ona görə də, Azərbaycanda idman və olimpiya hərəkatı sahəsində MOK-un fəaliyyətində əsaslı dönüş yaratmaq tələb olunurdu. Daha sonra Sidneydə 3, Afinada 5, Pekində 7, Londonda 10 medal qazanıldı. Azərbaycan ən çox medalı 2016-cı il Rio Yay Olimpiya Oyunlarında əldə etdi - 18 medal. Medallardan 1-i qızıl, 7-si gümüş, 10-u isə bürünc medaldır. Xatırladaq ki, 2020-ci ildə koronavirus pandemiyası səbəbindən Tokio Olimpiadası təxirə salınmışdı. Oyunlar zamanı Tokioda 19 idmançıda COVID-19 virusu aşkarlanmış və idmançılar yarışlarda iştirak edə bilməmişlər. Hazırlıq dövrünü normal keçirə bilməyən idmançılarımız Tokio Yay Olimpiya Oyunları bitməzdən bir gün əvvəl yarışlarda çıxışlarını başa vurmuşdular. Olimpiyaçılarımız Tokioda üçü gümüş, dördü bürünc olmaqla cəmi yeddi medal qazanmışdılar.

Növbəti illərdə qarşıya qoyulan məqsədlərə nail olmaq və yeni uğurlara imza atmaq üçün imkanlar səfərbər edilib. Aparılan işlər və həyata keçirilməsi nəzərdə tutulan tədbirlər Azərbaycanın olimpiya oyunlarına daha yüksək səviyyədə hazırlığını təmin edəcək, qarşıya qoyulmuş məqsədlərə çatmaq imkanı yaradacaq.

**Emin QASIMOV,**
**"Respublika".**